https://doi.org/10.59849/3006-1342.2025.3.21
UOT 94(479.24)

*Nərgiz Aydın qızı Rəsulova*
*Gəncə Dövlət Universiteti*
*tarix üzrə fəlsəfə doktoru, dosent,*
*AMEA Gəncə Bölməsi Diyarşünaslıq İnstitutu Tarix şöbəsinin müdiri*
*E-mail: nararasulova@bk.ru*
*https://orcid.org/0009-0003-8622-5605*
*Nuranə Zöhrab qızı Qənbərova*
*AMEA Gəncə bölməsi Diyarşünaslıq İnstitutu*
*Laborant*
*E-mail: hesenova.nurane.099@gmail.com*
*https://orcid.org/0009-0008-1919-8084*

# QARABAĞ XANLIĞI İLƏ RUSİYA İMPERİYASI ARASINDA DİPLOMATİK MÜNASİBƏTLƏR

*XVIII əsrin sonu - XIX əsrin əvvəllərində Azərbaycanda çox mürəkkəb siyasi vəziyyət yaranmışdı. Ölkə, öncələr olduğu kimi, yenə də dağınıq halda qalmaqda idi. Ayrı-ayrı xanların Azərbaycan torpaqlarını vahid dövlət halında birləşdirmək cəhdləri iflas etmişdi. Torpaq və sərvətlərini çoxaltmaq uğrunda bir-birləri ilə daimi mübarizə aparan feodal hakimlər özlərinin şəxsi maraqlarını vətənin ümumi mənafeyindən öndə tuturdular. Bu isə ölkə üçün çox ağır nəticələrə gətirib çıxarırdı. Xalq kütlələrinin Rusiyaya meyli XVIII əsrin ikinci yarısından Azərbaycan-Rusiya münasibətlərinin inkişafı tarixində yüksələn və aparıcı bir xətt idi. Onu da qeyd etmək lazımdır ki, Qarabağ xanı İbrahimxəlil xanın Rusiyanın himayəsinə keçmək istəyi isə heç də xanlığın bütün əhalisinin istəyi deyildi. Belə ki, əksəriyyət hətta İbrahimxəlil xana çox yaxın olan bəylər belə, onun bu addımına etiraz edirdilər.*

*1805-ci il mayın 14-də İbrahimxəlil xanın Sisianovun Gəncənin 20 verst kənarında Kürəkçay sahilindəki düşərgəsinə gələrək, rus himayəsinə keçməklə bağlı 11 maddədən ibarət müqavilə və sədaqət haqqında andlı öhdəlik imzalaması ilə əslində xanlıq Rusiyanın yarımmüstəmləkəsinə çevrildi. Xan nə qədər öz suveren hüquqlarının bir hissəsindən imtina etməklə öz taxtını və Qarabağın bütövlüyünü qorumaq istəsə də, tez bir zamanda xanın yanıldığı məlum oldu.*

*Açar sözlər:* Qarabağ xanlığı, Kürəkçay müqaviləsi, Pənahəli xan, İbrahimxəlil xan, Rusiya İmperiyası

## *Giriş*

1747-ci il iyun ayının 19-dan 20-nə keçən gecə Nadir şah qətlə yetirildikdən sonra yaranan şəraitdə Azərbaycanda 20-yə qədər müstəqil və yarım-müstəqil xanlıq təşəkkül tapdı. Belə bir tarixi vəziyyətdə Pənahəli bəy də 200-ə yaxın süvari tərəfdarı ilə birgə Qarabağa gəlmiş və özünü xan elan edərək xanlığın əsasını qoymuşdur. Pənahəli xanın özündən dəfələrlə daha güclü düşmənlər üzərində qələbə qazanması onun şöhrətini və nüfuzunu artırmış, sonrakı dövrlərdə də işğallar və diplomatik bacarığı sayəsində xanlığın beynəlxalq aləmdə nüfuzunun daha da artmasına səbəb olmuşdur. Beləliklə, xanlıq böyük dövlətlərin: Rusiya, Osmanlı və Qacarların xüsusi marağına çevrilmişdi. Belə ki, həmin dövrdə Cənubi Qafqaz uğrunda Rusiya, Osmanlı və Qacarlar dövləti mübarizə aparırdı. Mübarizənin ən fəal iştirakçılarından biri özünün sosial-iqtisadi və hərbi potensialına görə Qacar və Osmanlıdan

qat-qat daha güclü, iqtisadi və hərbi imkanları isə yüksələn xətlə inkişaf edən Rusiya idi [6, s. 256].

**Məliklərin seperatçılıq fəaliyyətləri.** Artıq XVIII əsrin əvvəllərindən başlayaraq Rusiya faktoru beynəlxalq münasibətlərdə başlıca rol oynamağa başlamışdı. XVIII əsrdə Rusiya özünün güclü ordusuna arxalanaraq fəal işğalçılıq siyasəti ilə seçilirdi. Bu ölkənin silah zavodlarında hər il 30 min tüfəng, yüzlərlə top, külli miqdarda döyüş sursatı istehsal olunurdu. Canlı qüvvə və texniki təchizat baxımından böyük üstünlüyə malik olan rus ordusu daha çox işğalçı müharibələrlə məşğul idi. Rusiyanın belə artan nüfuzu Qarabağda seperatcılıq fəaliyyəti ilə məşğul olan məlikliklərin ondan öz maraqları üçün istifadə etmələrinə də şərait yaratdı. Belə ki, Qarabağda İbrahimxəlil xanın əleyhinə olan məliklər onu taxtdan salmaq məqsədilə rus generalı Potyomkinə bildirirdilər ki, Qarabağda xan hakimiyyəti devrildiyi halda onlar Rusiyanın himayəsi altında burada xristian dövləti yaradılması arzusundadırlar. Bundan xəbər tutan İbrahimxəlil xan diplomatik addım ataraq II Yekaterina hökumətinə bildirdi ki, o, Rusiya dövlətinin himayəsinə keçməyə hazırdır. II Yekaterina İbrahimxəlil xanın müraciətinə biganə qalmayaraq Qafqazda fəaliyyət göstərən Potyomkinə aşağıdakı məzmunda məktubla müraciət etdi: "Mənə elə gəlir ki, İbrahim xanın məktubu, türklərin və iranlıların məktublarından fərqli olaraq, nəzakətlə yazılmışdır. Yaxşı olardı ki, mənə onun kim olduğunu bildirəsən: necə olub ki, xan rütbəsinə çatmışdır, cavandır, ya qoca, qüvvəsi nə vəziyyətdədir" [1, s. 702-705].

Bunlara baxmayaraq, İbrahimxəlil xan urmiyalı Fətəli xanın hücumlarının qarşısını aldıqdan sonra Xaçın məliyi Mirzə xan və Vərəndə məliyi Şahnəzər İbrahimxəlil xana Qarabağ xanının müttəfiqi olacaqlarını bildirdilər. 1781-ci ildə İbrahimxəlil xan Xaçın və Vərəndə məliklərinin dəstələri ilə birgə Tuğ qalasını mühasirəyə aldı. Müttəfıqlər Dizaq məliyi Yesayı hakimiyyətdən devirməyə nail oldular və oraya Yesayın qardaşı oğlu Bahtamı məlik təyin etdilər. İbrahimxəlil xanın Qarabağın digər məlikləri ilə mübarizəsi də qələbə ilə yekunlaşdı. II Yekaterina İbrahimxəlil xana hərbi kömək etməyə tələsmirdi. Əsas səbəb isə Şuşa qalasında həbsdə olan məliklərin zindandan qaçaraq Tiflisə getmələri və II Yekaterinaya müraciətləri idi ki, İbrahimxəlil xana kömək edilməsin. Belə bir məlumat da var ki, bu dövrdə Tiflisdə yerləşən rus batalyonunun komandiri S.Burnakov Qarabağ xanlığına yürüş etmək istəmiş, lakin Rusiya-Osmanlı müharibəsinin başlanması ona mane olmuş və Burnakov qoşunları ilə birlikdə Tiflisə geri dönmüşdür. [9, s. 149-183].

**Rusiya ilə diplomatik əlaqələrin qurulması.** Rusiya-Osmanlı müharibəsi (1768-1774) dövründə Qarabağ xanlığının Azərbaycanın başqa xanlıqları arasında nüfuzu xeyli artmışdı. Belə ki, Naxçıvan, Qaradağ, Ərdəbil, Xoy və digər xanlıqlar İbrahimxəlil xanla həmrəy və ona tərəfdar olduqlarını bildirmişdilər. Lakin bir sıra xanlıqlar kimi qarabağlı İbrahimxəlil xanın da dağınıq Azərbaycan torpaqlarını vahid halda birləşdirmək sahəsindəki təşəbbüsləri uğursuzluğa düçar oldu.

XVIII əsrin sonlarında xarici təhlükənin artması şəraitində Qarabağ xanlığı yenidən Rusiya ilə ittifaqa meyl göstərirdi. Qarabağ xanlığının Rusiya ilə əlaqəsinin möhkəmlənməsində bu xanlığın vəziri, Azərbaycanın görkəmli şairi M.P.Vaqif əsas rol oynayırdı. O, yalnız Rusiyanın yardımı ilə Vətən torpağını Qacar və Osmanlı təcavüzkarlarının əsarətindən xilas etməyin mümkün olduğunu dərk edib Rusiya hökumətinə müraciət edərək ondan yardım istəmişdi. Rusiyanın fəal iştirakı ilə Kartli çarlığı ilə Qarabağ xanlığı arasında imzalanan saziş məhz Qacarlar və Osmanlı imperiyalarının əleyhinə idi [5, s. 118].

1783-cü ildə İbrahimxəlil xan Rusiya hökumətinə məktubla müraciət etmiş və Peterburqa xüsusi elçi heyəti göndərib xanlığın Rusiya təbəəliyinə qəbul olunmasını xahiş etmişdi. İbrahim xan Qafqazdakı rus qoşunlarının komandanı general-poruçik

P.S.Potyomkinə yazdığı məktubda qeyd edirdi ki, o, Rusiyanın təbəəliyinə daxil olmağa hazırdır. 1783-cü ilin mayında II Yekaterina knyaz Q.A.Potyomkinə fərman göndərərək tapşırmışdı: "İbrahim xana gəldikdə isə onun Rusiya himayəsinə qəbul olunmasında heç bir çətinlik və ya şübhəyə rast gəlməzsə, çar İrakli barəsində görülən tədbirləri onun da barəsində görmək olar və belə olan surətdə general-poruçik Potyomkinə tapşırarsınız ki, İbrahim xanın və xələflərinin Rusiya imperator taxtına tabe olması, onun üzərində və öz xələfləri üzərində mənim və mənim xələflərimin ali hakimiyyətini qəbul etməsi haqqında onunla müqavilə bağlasın" [6, s. 260].

II Yekaterina hökuməti bəzi xanların Rusiya tabeliyinə keçmək istəyini rəğbətlə qarşılamışdı. İmperatriça Qafqazdakı baş komandan general İ.V.Qudoviçin adına göndərdiyi 1792-ci il 8 fevral tarixli məktubda yazmışdı: "Əmr edirik ki, bizə xeyirxahlıq göstərən xanların hamısına yüksək himayəmiz barəsində ümid verəsiniz"

Həmin dövrdə, Qarabağ və Gürcüstana hücum etməyə hazırlaşan Ağa Məhəmməd xan 1794-cü ildə Qarabağ xanı İbrahim xandan öz oğlunu əmanət göndərməyi tələb etdi. İbrahim xan həmin tələbi qəbul etmədi və yardım üçün Rusiyaya müraciət etdi. Bu zaman Ağa Məhəmməd xanın başqa bir dəstəsi Talış xanlığına hücum etdi. Düşmən əlindən canını qurtaran Talış xanı Sarı adasına qaçaraq rus donanmasına pənah gətirdi. İran qoşunlarının bir hissəsi 60 "kirjimlə" (yastıdibli qayıqlarla) dəniz yolu ilə Talış üzərinə göndərilmişdi. Lakin burada dayanan rus hərb gəmisi şahın sərbazlarına sahilə çıxmaq imkanı vermədi. 1795-ci ilin yayında Ağa Məhəmməd xanın 85 min nəfərlik ordusu Qarabağ xanlığına daxil oldu və Şuşa qalasını mühasirəyə aldı. İrəlilədikcə hər şeyi məhv edən, qadınlar və uşaqları belə oddan-qılıncdan keçirən işğalçı ordu Qarabağı və Gəncəni tutdu, Tbilisiyə od vurdu. Mübarizəyə başlayan Zaqafqaziya xalqları qanlı istilaçı Qacarın güclü qüvvəsinə müqavimət göstərməkdə çətinlik çəkirdilər. Buna görə də, onlar yenə öz nəzərlərini Rusiyaya dikərək, ondan yardım istədilər. Ağa Məhəmməd xanın Zaqafqaziyaya soxulması Rusiya hökumətini də narahat etmişdi, ona görə ki, İran ordusunun hücumu Qafqazda Rusiyanın mənafeyinin əksinə yönəlmiş və onun cənub sərhədləri üçün bilavasitə təhlükə törətmişdi. Lakin Osmanlı ilə yeni müharibədən çıxmış Rusiya həmçinin Azərbaycan xanlarının münasibətindən ehtiyat edərək Qacarla müharibədən çəkinirdi [4, s. 287].

XVIII əsrin sonlarında Azərbaycan xanlıqlarının xarici siyasi vəziyyətinin daha da pisləşdiyi bir zamanda Qarabağ və Quba xanlıqları 1797-1798-ci illərdə Rusiyaya elçi heyətləri göndərərək Rusiyanın himayəsinə keçmək istədiklərini bildirmiş və ondan kömək istəmişdilər. XVIII əsrin axırlarında xarici təhlükənin artması şəraitində Qarabağ xanlığı yenə də Rusiya ilə ittilaqa meyil göstərdi. I Pavelin Azərbaycan xanlarına göndərdiyi 1797-ci il 5 yanvar tarixli reskriptində Rusiyanın Rusiyanın Azərbaycan xanlıqlarını öz himayəsinə almaq istəyi göstərilirdi. Azərbaycan o zaman Rusiya-İran münasibətlərində də əsas yer tuturdu. 1798-ci ildə aparılan danışıqlar zamanı Rusiya hökuməti, Azərbaycan vilayətləri və Gürcüstan haqqında öz iddalarından əl çəkməyi İrandan tələb etmişdi. Lakin qeyd etmək lazımdır ki, Azərbaycan və Zaqafqaziyanın başqa ölkələrində Rusiya ilə birləşmək hərəkatı tarixən ziddiyyətli bir dövrə təsadüf etmişdi. Bu zaman feodalların yuxarı təbəqəsinin bir hissəsi hələ də Osmanlı və İrana meyil edərək, öz ixtiyaratını və imtiyazlı vəziyyətini qoruyub saxlaya bilməkdən ötrü bunu təminat hesab edirdi. Bu dövrdə Azərbaycanda tarix səhnəsində bir-birinə zidd iki meyil, iki istiqamət yaranmışdı. Bunlardan birincisi geniş xalq təbəqələrinin arzusunu ifadə edərək, Rusiyanın himayəsinə keçmək ilə ölkəni Qacarlar və Osmanlının zülmündən azad etmək məqsədini güdən qabaqcıl meyil idi. Hakimiyyət başında dayanan feodalların yuxarı təbəqəsinin bir hissəsi də bu cərəyana daxil olmuşdu. Lakin öz siyasətində hər şeydən əvvəl öz sinfi mənafeyini güdən hakim feodallardan fərqli olaraq, xalq kütlələrinin Rusiyaya olan meyli daha sabit və ardıcıl idi. İkinci mürtəce meyil isə geniş ictimai

bünövrəyə sahib olmayan feodal sinfinin gah Qacarlar, gah da Osmanlı ilə ittifaqa girən bir hissəsini təmsil edirdi [6, s. 235].

Rusiya İmperiyasının XIX yüzilliyin əvvəllərindən başlayaraq Azərbaycan torpaqlarını yeni işğal cəhdi faktiki olaraq müharibəyə çevrilmişdi. Çar hökuməti Azərbaycanın xanlıqlara parçalanmasını əsas tutaraq, bu prosesdə həm silah, həm də müqavilələr bağlanmasından istifadə edirdi. Azərbaycanın Car-Balakən camaatlığı (1803) və Gəncə xanlığı (1804) silah gücünə işğal edilmişdi. Qafqazdakı rus qoşunlarının baş komandanı P.D.Sisianov Gəncənin işğalından sonra Qarabağ xanlığına hərbi-diplomatik təzyiq göstərməyə başladı. Sisianovun qarabağlı İbrahim xan (1763-1806) ilə yazışmalarından, danışıqlarda vasitəçilik edən gürcü zadəganı İvan Corayev və mayor Lisaneviçə göstərişlərindən məlum olur ki, xan müqavilənin daha uyğun şərtlərlə bağlanmasına çalışmışdır. Nəhayət, 1805-ci il mayın 14-də Kürəkçay müqaviləsi imzalandı. Çarizmin Kürəkçayadək Cənubi Qafqaz hakimləri ilə bağladığı müqavilədən, bu və ya digər dövlət qurumlarının ilhaqına dair şərtlər, onların ləğvi haqqında direktiv sənədlərə (Rusiya ilə Quba xanlığı arasında 1782-ci il müqaviləsi, Kartli-Kaxet çarlığı ilə 1783-cü il Georgiyevsk müqaviləsi, I Pavelin 1801-ci il yanvar və I Aleksandrın 12 sentyabr manifestləri, Quba xanlığı və başqa hakimlərlə 1802-ci il Georgiyevsk müqaviləsi, Car-Balakən andlı öhdəliyi, Gəncə ilə döyüş ərəfəsində irəli sürülən şərtlər, Qərbi Gürcüstanın knyazlıq və çarlıqları ilə münasibətlərə dair müqavilələri və b.) baxıldıqdan sonra məlum olur ki, onun bağlanılması zamanı bəzi istisnalarla məhz 1783-cü il Georgiyevsk müqaviləsinin başlıca müddəaları əsas götürülmüşdür. Faktlar sübut edir ki, İbrahim xan onun şərtləri ilə yaxından tanış idi. Həmin müqavilənin bağlanılması haqqında məlumat verildiyi bildirilən siyahıda Qarabağ xanlığının da adı çəkilirdi. Bununla yanaşı Qarabağ xanlığının vəziri M.P.Vaqif Tiflisdə bu münasibətlə keçirilən tədbirlərdə iştirak etmişdi. [10, s.104-148]. Beləliklə, Rusiya Qarabağ xanlığı ilə 1783-cü il Georgiyevsk müqaviləsi əsasında traktat bağlamaqla ona mühüm önəm verirdi. Kürəkçay müqaviləsi preambula və 11 artikuldan ibarət olmaqla qarabağlı İbrahimxəlil xanın Rusiya imperiyasının təbəəliyinə keçməsini təsdiq edir, artikullarda bundan irəli gələn şərtlər müəyyənləşdirilirdi. Müqavilənin 1, 4, 6, 8 və 9-cu bəndlərində İbrahimxəlil xanın, 2, 3, 5 və 7-ci maddələrində Rusiyanın öhdəlikləri əks olunmuşdur. Rusiya birmənalı formada Qarabağ xanlığını müstəqil dövlət kimi qəbul edir, İbrahimxəlil xanı və onun varislərini xanlığın yeganə sahibi kimi tanıyırdı. Ən vacib məqamlardan biri İbrahimxəlil xanın adı keçən bütün artikullarda şuşalı və qarabağlı İbrahim xan kimi təqdim edilməsi idi. Digər əhəmiyyətli bir məsələ isə bu idi ki, Qarabağ xanlığının bütövlüyünün saxlanmasına imperator tərəfindən zəmanət verilir və müqavilənin X bəndində qeyd edilirdi ki, bu müqavilə müddətsiz bağlanır və bundan belə heç bir dəyişikliyə uğramamalıdır. XI maddə ratifikasiya barəsində idi. Kürəkçay müqaviləsində Qarabağ məliklikləri və ya ermənilərin xanlığa hər hansı iddia və münasibəti haqqında bir kəlmə belə yoxdur. Bütün bunlarla yanaşı, Qarabağ xanlığının müsəlman dövləti olması və onun 1783-cü il Georgiyevsk müqaviləsindən fərqli olaraq yeni tarixi şəraitdə imzalanması onun 5, 8, 9, 10, 11 və b. artikullarda irəli sürülən müddəaların burada nəzərə alınmasına imkan verməmiş, əksinə digər yeni şərtlərlə Qarabağ xanlığının öhdəlikləri ağırlaşdırılmışdır. Rus və gürcü dillərində imzalanmış 1783-cü il Georgiyevsk müqaviləsindən fərqli olaraq, Kürəkçay müqaviləsi yalnız rus dilində imzalanmışdı. Bu hal da müqavilənin mətnində, xüsusilə Qarabağ xanlığına dair öhdəliklərdə özünü biruzə verir. 1783-cü il Georgiyevsk müqaviləsi 1805-ci il 14 may Kürəkçay müqaviləsinin başlıca müddəalarının formalaşdırılması üçün əsas olduğu kimi, 1805-ci il 14 may Kürəkçay müqaviləsi Şəki xanı Səlim xanla həmin yerdə imzalanmış 1805-ci il 22 may Kürəkçay müqaviləsi və Şirvan xanı Mustafa xanla bağlanmış 1805-ci il 25 dekabr müqavilələri üçün əsas olmuşdu. Bu müqavilələrdə ancaq yerli şəraitlə bağlı olan bəzi dəyişikliklər (bacın miqdarı və s.) edilmişdi. Rusiya tərəfindən 1822-ci ildə Qarabağ xanlığının ləğv edilməsilə Kürəkçay müqaviləsinə də son qoyuldu [4, s. 20].

Qeyd etmək yerinə düşər ki, Qarabağ xanlığında əhalinin əsas sosial dayağını türklər təşkil edirdi. 1805-ci ildə Rusiya Qarabağ xanlığını asılı hala saldıqdan sonra rus hökumətinin müsəlman əhalisini sıxışdırmaq və özünə sosial dayaq yaratmaq üçün ermənilərin Qacar və Osmanlıdan gətirərək Qarabağda yerləşdirmə siyasəti nəticəsində artıq 1822-ci ilə qədər minlərlə erməni ailəsi gətirilib yerləşdirilmişdi. Bundan əlavə Qafqazdakı rus qoşunlarmın komandiri general Yermolovun polkovnik Radinskiyə göndərdiyi 15 noyabr 1816-cı il tarixli göstərişdən məlum olur ki, İbrahimxəlil xanın oğlu Əbülfət xan özü ilə 4 min ailəni xaricə aparmışdı. Aparılan ailələr heç şübhəsiz ki, müsəlmanlardan (və əsasən əlbəttə ki, türklərdən) ibarət olub. Buna görə də biz xanlıqda yaşamış Azərbaycan türklərinin sayına 4 min ailə də əlavə edə bilirik [2, s.68-78]. Demək xanlığın əvvəlki dövrlərində xristianların sayı hardasa 20%-ə yaxın, müsəlmanların sayı isə 80%-ə yaxın olmuşdu. C.Qlinkanın verdiyi məlumata əsasən II Rusiya-İran müharibəsi qurtardıqdan sonra cəmi üç ay yarım ərzində cənubi Azərbaycandan cənubi Qafqaza 8 min erməni ailəsi köçürülmüşdü, bu isə 40 min nəfər demək idi. Nəticə etibarı ilə belə bir qənaətə gəlmək olar ki, XIX əsrin əvvəllərində Qarabağ xanlığında təxminən 22.500 ailə yaşamış və onlardan da 17 min nəfərdən çoxunu Azərbaycan türkləri təşkil etmişdir [7, s. 142].

## *Nəticə*

Son olaraq vurğulamaq lazımdır ki, həmin dövrün tarixi şəraiti bunu deməyə əsas verir ki, dağınıq halda olan vətən torpaqları xarici təhlükə ilə daimi üz-üzə qalmış və əsarət altına düşməyə məhkum olmuşdur. Bu zaman xanlıqda yaşayan və seperatcılıq fəaliyyəti aparan məlikliklərə qarşı İbrahimxəlil xan Rusiya ilə yaxınlaşmaq üçün addım atmağa məcbur olur və 1805-ci ildə Qarabağ xanlığının Rusiya İmperiyasının tərkibinə keçməsi ilə bağlı müqavilə imzalanmışdır. Müqaviləyə görə, Qarabağ xanlığı Rusiyanın tərkibinə daxil olur, ancaq xanlığın daxili idarəçiliyi və Qarabağ xanının varislərinin "xan" titulu qorunub saxlanırdı. Kürəkçay müqaviləsindən sonra Qarabağ xanlığı faktiki olaraq öz müstəqilliyini itirərək Rusiya himayəsinə keçmiş, xanlıq daxili və xarici siyasətindən məhrum olmuşdur. Buna baxmayaraq, 1 il keçməmiş - 12 iyun 1806-cı ildə İbrahimxəlil xan Şuşa yaxınlığındakı Xanbağında 17 nəfər ailə üzvləri ilə birgə rus mayoru Lisaneviçin dəstəsi tərəfindən öldürülmüşdür.

## ƏDƏBİYYAT


1. Акты собранные Кавказской Археографической комиссии. т.II, Тифлис, 1868, док. 1436, с.702-705.
2. Аракелян А. Карабах до завоевания российским царизмом //Исторический журнал, 1938 г., № 10, с. 68-78.
3. Bytkob.П.Г. Материалы для новой истории Кавказа. Часть II, с. 287.
4. Cavanşir. Ə. Qarabağ xanlığmm 1747-1806-cı illərdə siyasi vəziyyətinə dair //Qarabağnamələr, I c., Bakı, Yazıçı, 1989, s. 149-183.
5. Гарабах: Кюрекчайский договор - 200. с,20 Баку, 2005
6. Qarabaği. M.C Qarabağ tarixi //Qarabağnamələr, I kit., Bakı, 1989, s. 104-148.
7. Mərkəzi Dövlət hərbi-tarix arxivi, fond 52, iş 286, vərəq 259 260: Azərbaycan SSR EA Xəbərləri №9. 1949. səh. 118
8. Mərkəzi Dövlət hərbi tarix arxivi, fond 52, siyahı 1/194. iş 286, I hissə, vərəq 6-7 və arxa tərəfi; Azərbaycan SSR EA Tarix institutunun elini arxivi, inv. № 1795, vərəq 235.
9. Левиатов.В.Н. Очерки из истории Азербайджана в XVIII веке. SİRİO (Rusiya imperator tarix cəmiyyətinin məcmuəsi), 27-ci cild, səh 150. Bakı, 1948, s. 256;
10. Описание переселения армян Адирбежанских в пределы России, с кратким предворительным изложением исторических времён Армении [почерпнутое из

современных записок Сергеем. М. Типография Лазаревых института восточных языков. 1831, 142 с.

УДК 94(479.24)

*Наргиз Айдын кызы Расулова,*
*Нурана Зохраб кызы Ганбарова*
*Гянджинское отделение НАНА*

## ДИПЛОМАТИЧЕСКИЕ ОТНОШЕНИЯ МЕЖДУ КАРАБАХСКИМ ХАНСТВОМ И РОССИЙСКОЙ ИМПЕРИЕЙ

*РЕЗЮМЕ*

*Ключевые слова:* Карабахское ханство, Кюрекчайский договор, Панахали-хан, Ибрагимхалил-хан, Российская империя

В конце XVIII – начале XIX века в Азербайджане сложилась крайне сложная политическая ситуация. Страна, как и прежде, пребывала в состоянии раздробленности. Попытки отдельных ханов объединить азербайджанские земли в единое государство потерпели неудачу. Феодальные правители, постоянно воюя друг с другом ради расширения своих владений и увеличения богатства, ставили личные интересы выше общих интересов родины. Это привело к весьма серьёзным последствиям для страны. Склонность народных масс к России была восходящей и ведущей линией в истории развития азербайджано-российских отношений со второй половины XVIII века. Следует также отметить, что стремление карабахского хана Ибрагимхалил-хана перейти под покровительство России не было желанием всего населения ханства. Поэтому большинство, даже беки, приближенные к Ибрагимхалил-хану, возражали против этого шага. 14 мая 1805 года Ибрагимхалил-хан прибыл в лагерь Сицианова на берегу реки Кюрекчай, в примерно 20 верстах от Гянджи, и подписал договор из 11 статей и присягу на верность России, фактически превратив ханство в полуколонию России. Как бы ни хотел хан сохранить свой престол и целостность Карабаха, отказавшись от части своих суверенных прав, вскоре стало ясно, что он ошибался.

UDC 94(479.24)

*Nargiz Aydın Rasulova,*
*Nurana Zohrab Ganbarova*
*Ganja Branch ANAS*

## DIPLOMATIC RELATIONS BETWEEN THE KHANATE OF KARABAKH AND THE RUSSIAN EMPIRE

*SUMMARY*

*Keywords:* Karabakh Khanate, Treaty of Kurekchay, Panahali Khan, Ibrahimkhalil Khan, Russian Empire

At the end of XVIII century - the beginning of XIX century, a very complicated political situation arose in Azerbaijan. The country, as before, remained in a disorganized state. The attempts of individual khans to unite the Azerbaijani lands into a single state had

failed. The feudal rulers, constantly fighting each other for the sake of increasing their lands and wealth, placed their personal interests above the common interests of the homeland. This led to very serious consequences for the country. The inclination of the masses of the people towards Russia was a rising and leading line in the history of the development of Azerbaijani-Russian relations from the second half of XVIII century. It should also be noted that the desire of the Karabakh khan Ibrahimkhalil khan to come under the protection of Russia was not the desire of the entire population of the khanate. Thus, the majority, even the beys who were very close to Ibrahimkhalil khan, objected to this move. On May 14, 1805, Ibrahimkhalil Khan arrived at Sisyanov's camp on the banks of the Kurekchay River, about 20 versts from Ganja, and signed an 11-article treaty and an oath of allegiance to Russia, effectively turning the khanate into a semi-colony of Russia. No matter how much the khan wanted to preserve his throne and the integrity of Karabakh by giving up some of his sovereign rights, it soon became clear that the khan was mistaken.

***Daxil oldu: 13.11.2025-ci il***